# İdman xəbərləri

## “Qəbələ” 38 oyunda 36 qol vurub



“Qəbələ” futbol klubu avrokuboklarda keçirdiyi 38 oyunda 36 qol vurub.

Komandamızın heyətində 15 futbolçu rəqib qapısına yol tapıb. Bir dəfə isə rəqib komandanın avtoqolu qeydə alınıb.

2014-cü ildən başlayaraq 6 mövsüm UEFA Avropa Liqasında çıxış edən “Qəbələ”nin qitəmiqyaslı turnirdəki ən yaxşı bombardiri Sergey Zenyovdur. Estoniyalı hücumçunun hesabında 6 top var.

İkinci sırada Teo Uiks qərarlaşıb. Avrokubokdakı yeganə het-trikimizin müəllifi ümumilikdə 5 qol vurub. İlk “üçlüy”ü Dodo qapayır. Onun aktivində 4 top var.

Qeyd edək ki,komandamızın altı üzvü 3 və ya daha çox qola imza atıb.

## Futbolçularımız qitə miqyaslı turnirdə



2014-cü ildən avrokubokların daimi iştirakçısına çevrilən “Qəbələ”nin 71 futbolçusu qitə miqyaslı turnirdə meydana çıxıb.

Ardıcıl 6 mövsüm UEFA Avropa Liqasında qüvvəsini sınayan “qırmızı-qaralar”ın oyun sayında rekordçusu Dmitri Bezotosnıdır. Ukraynalı qapıçı 32 avrokubok matçında komandamızın şərəfini qoruyub. İkinci göstəriciyə malik olan Vojislav Stankoviç ondan üç oyun geri qalır. 3-cü yerə Rikardinyo və Sergey Zenyov şərikdir. Onların hərəsinin hesabında 27 matç var. Yerli futbolçular arasında Asif Məmmədovla Rəşad Sadiqov öndədir. Onlar 22 avrokubok qarşılaşmasının iştirakçısı olublar.

Ümumilikdə 11 futbolçu 15 və ya daha çox oyunda meydana çıxıb.

# Maraqlı faktlar

- Neptunun kütləsi Yerin kütləsindən 17 dəfə çoxdur.
- Bakteriyaların dünyada 3,5 milyard ildir ki, yaşayır və dünyada ən çox yayılmış orqanizmlərdir.
- Azərbaycan milli futbol komandasının konkret bir ləqəbi olmasa da, azarkeşlər və yerli KİV-lər tərəfindən "Milli" çağırılır.
- Yaponiya yazıçısı Ryunosuke Akutaqava əjdaha ilində, əjdaha ayında və əjdaha saatında anadan olmuşdur.
- Braziliyanın məşhur futbolçularından biri olan Qarrinçanın sağ ayağı sol ayağından 6 santimetr qısa idi.
- Futbol meydançasında hakimin fit səsi ilk dəfə 1881-ci ildə eşidilmişdir. Ondan qabaq isə hakim oyunu əlindəki zənglə idarə edirdi.
- Hər min uşaqdan biri tək dişlə doğulur.

**Topladı: Səfa ASLANOV.**

# Xalq təbabəti

## Biyan kökünün faydaları

Paxlakimilər fəsiləsinə aid olan biyan bitkisi qalın və torpaq altında 3-4 metrə qədər uzana bilən kök sisteminə malikdir. O torpaq üstündə 1-2 metr hündürlüyə qədər qalxır. Biyanın yarpaqları kiçik, oval şəklində və yaşıl rəngdə olur. Meyvələri yayın sonlarında və payızın əvvələrində yetişir. Ona Qafqaz meşələrində yetərincə rast gəlmək mümkündür.

Biyan kökündən qədim zamanlardan istifadə edilib. Qədim Yunan və Roma həkimləri soyuqlama, öskürmə və selikli qişaların iltihabı xəstəlikləri zamanı biyan kökündən geniş istifadə ediblər.

Hazırda biyan kökü böyük marketlərin ədviyyatlar bölməsində satılır.

***Onu alan zaman aşağıdakılara diqqət yetirmək lazımdır:***

*-qablaşdırmanın hermetik olmasına,*

*-biyan kökünün rənginə və qoxusuna (keyfiyyətli biyan kökü tünd qəhvəyi rəngdə olur və xaricdən sarı kəsik izlənir),*

*-biyan kökü əlavə edilmiş konfetlərə(konfetlər yanlız şəkərdən, nişastadan,undan, jelatindən, duz və dadlandırıcılardan istifadə edilməlidir).*

Qida sənayesində biyan kökündən ədviyyat kimi istifadə edilir. Onun ətrindən və dadından Yaponiya, Çin, Misir, Monqolustan, İngiltərə, Skandinaviya və s. ölkələrin mətbəxində geniş istifadə olunur.

Biyan kökü müxtəlif təbii turşular, qətran və efir yağları ilə də zəngindir. Bu bitkinin dadlı və qoxulu olmasına səbəb tərkibində olan efir yağlarıdır.

***Faydalı və müalicəvi xüsusiyyətləri:***



Biyanın kökü qlisirrizin turşusu ilə boldur. Bu turşunun tərkibi böyrəküstü vəzin kortizol hormonunun tərkibinə yaxındır. Turşu orqanizmə antiallergik, antimiukrob və iltihab əleyhinə təsir bağışlayır. Eləcə də tərkibində salonin və qlisirrizin olan bu bitki bəlğəmgətirici təsirə malikdir və ondan öskürək əleyhinə müxtəlif siroplar hazırlanır. Biyan kökü həm də quru və yaş öskürəyi sağaldır, bronxit, vərəm, astma, laringit əlamətlərinin aradan qalxmasına səbəb olur. Uzun müddət siqaret çəkənlərdə meydana çıxan xırıltılı öskürəyi də biyan kökü vasitəsilə aradan qaldırmaq olur.

Tərkibində şəkərin olmasına baxmayaraq biyan kökü şəkərli diabet xəstələrinə heç biz ziyan vermir. Mədənin yara və qastrit xəstəlikləri zamanı biyan kökündən hazırlanmış siropu içmək çox faydalıdır.

Onkoloji xəstəliklərin müalicəsi zamanı biyan kökündən istifadə eləmək xəstəliyin orqanizmə verdiyi zərərlərin miqdarını azaldır. Onun siropu mədəaltı vəzin funksiyasını yaxşılaşdırır.

Öskürəyi sağaltmaq məqsədilə 15 qram üyüdülmüş biyan kökünü eyni miqdarda gülxətmi və andız kökü ilə qarışdırıb qaynar suda 7-8 saat dəmlədikdən sonra gündə 3 dəfə yarım stəkan içmək lazımdır. Kosmetologiyada biyan kökü dəmləməsindən problemli dəriyə qulluq etmək üçün istifadə edilir.

***Biyan kökünün zərərli xüsusiyyətləri:***

Su-duz balansı pozulmuş adamlara böyrək xəstələrinə və təzyiqi yüksək olanlara biyan kökündən çox istifadə eləmək olmaz.

İki yaşına qədər uşaqlara da biyan kökündən istifadə eləmək olmaz. Hamiləlik zamanı və iki yaşına qədər olan uşaqlara biyan kökünü yanlız həkimin göstərişi ilə tətbiq etmək mümkündür. Biyan kökü orqanizmdə kaliumun miqdarının azalmasına səbəb olur. Kaliumun çatışmazlığı isə əzələ zəifliyinə səbəb olur. Miopatiya, kəskin böyrək xəstəliklərindən əziyyət çəkənlərin həkimin məsləhət olmadan biyan kökündən istifadə etmələri xəstəliyin əlamətlərini artıra bilir.

## Nadir rəsmlər

Şotlandiyalı alimlər 3 min il yaşı olan Qədim Misir mumiyasının tabutunda nadir rəsmlər aşkar ediblər.

”Takerheb” adlanan mumiyanın tanrı Amonun şəhəri olan Thebes nekropolundan 100 il əvvəl İngiltərəyə gətirildiyi bildirilir. Onun Thebe şahzadələrindən birinə aid olduğu ehtimal olunur.

Arxeoloqlar tabutun içərisində Qədim Misir tanrılarının rəsmlərini tapıblar. Bu rəsmlər arasında ən nadir olanı isə "Amentet" ("Şərq qadını") adlanan tanrıçanın təsviridir. Şotland alim Mark Hall bildirib ki, indiyədək tabutda - mumiyanın altında bu cür maraqlı rəsmlərin olduğu heç kimin ağlına gəlməyib. Onun sözlərinə görə, bu tapıntı Qədim Misirin e.ə. VIII-VII əsrdə tarixinin tədqiqinə də töhfə olacaq.

## “Wi-Fi” üçün yeni diapazon

“Wi-Fi” üçün yeni tezlik diapazonu (6 QHs) istifadəyə verilib. ABŞ-ın Federal Rabitə Komissiyası bu barədə qərar qəbul edib.



Artıq bir neçə ay sonra istifadəçilər daha sürətli simsiz internet və ev routerləri üçün daha çox boş kanal əldə edəcəklərini bildirən mütəxəssislərə görə “Wi-Fi” üçün yeni tezlik diapazonunun istifadəyə verilməsi bağlantıları daha etibarlı edəcək.

Bu həm pandemiya şəraitində, həm də yeni nəsil qurğularında qurulmuş biznes həllərinin reallaşdırılması üçün vacibdir.

Qurğuların 2020-ci ilin sonunadək 6 QHs-lik yeni tezlik diapazonunu dəstəkləməyə başlayacağı gözlənilir. Yeni qurğularda xüsusi nişan - “Wi-Fi 6E” olacaq.




QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı başlanmışdır

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


## İtmişdir

Qəbələ Rayon Dövlət Notariat Kontorunun 05 mart 2006-cı iltarixli 4 Ə-1022 salylı alqı-satqı müqaviləsi ilə Aydınqışlaq kənd sakini **Göyüşov Sədi Məhəmmədiyə oğluna** verilmiş JN seriyalı 678 nömrəli (kod 40608038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrara İslahat Komissiyasının 15 dekabr 1997-ci il tarixli 27 nömrəli qərarı ilə Soltannuxa kənd sakini **Əsgərova Fatma Məhərrəm qızına və ailə üzvlərinə** verilmiş JN seriylı 237 nömrəli (kod 40602038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Qaradeyin kənd sakini **Yusifov Tofiq Süleyman oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 355 nömrəli (kod 40610028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 08 dekabr 1997-ci il tarixli 27 saylı qərarı ilə Laza kənd sakini **Ağayev Vəzirxan Feyti oğluna və ailə üzvlərinə** verilmiş JN seriylı 260 nömrəli ( kod 40611018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Son dəqiqə» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1160*